

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

**Sayı: 63 (23.475)**

***5 may 2020-ci il, çərşənbə axşamı***

***Gündəlik ictimai-siyasi qəzet***

**www.serqqapisi.az**

**Qiyməti 20 qəpik**


### *Rəsmi xronika*



Qoşulmama Hərəkatının sədri kimi Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Təmas Qrupu formatında mayın 4-də videokonfrans vasitəsilə koronavirusla mübarizəyə həsr olunmuş "COVID-19-a qarşı birlikdəyik" mövzusunda Zirvə görüşü işə başlayıb.

Dövlətimizin başçısı Zirvə görüşündəki nitqində bildirib ki, Azərbaycan Qoşulmama Hərəkatının sədr ölkəsi kimi, Hərəkatın 1996-cı ildə qəbul olunmuş Metodologiyalar üzrə Kartaxena sənədindən çıxış edərək koronavirusa qarşı mübarizə üzrə Təmas Qrupunun yaradılması və bu formatda Zirvə görüşünün keçirilməsi təşəbbüsünü irəli sürmüşdür. Vurğulanıb ki, təqdirəlayiq haldır ki, Qoşulmama Hərəkatının bütün üzv dövlətləri bu təşəbbüsü yekdilliklə dəstəkləmişdir. Təmas Qrupunda coğrafi təmsilçilik və könüllü iştirak prinsipi əsasında bütün regional qruplardan olan ölkələr təmsil olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirakına görə Təmas Qrupuna daxil olan dövlətlərə təşəkkürünü bildirib, onları bu çətin dövrdə bir daha dostluğa, qarşılıqlı dəstəyə və həmrəyliyə dəvət edib.

## B.M.Məmmədovun "Naxçıvan Muxtar Respublikası Dövlət Sığorta Xidməti" publik hüquqi şəxsin direktoru təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bəxtiyar Məmmədbağır oğlu Məmmədov "Naxçıvan Muxtar Respublikası Dövlət Sığorta Xidməti" publik hüquqi şəxsin direktoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 4 may 2020-ci il*

### *İcmal*

## Naxçıvanda həyata keçirilən bütün işlər bir hədəfə yönəldilib: insan amilinə

## *Bu, ötən ayın mənzərəsində də aydın görünür*

***Muxtar respublikada illər öncə ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan və gələcəyə hesablanmış inkişaf strategiyasının yeni və müasir müstəvidə həyata keçirilməsi 30 illik blokada Naxçıvanının sosial-iqtisadi modelini yaratmışdır. Bu modeldə iqtisadiyyatın, onun əsas tərkib hissəsi olan sənaye və kənd təsərrüfatının dinamik inkişafı, ərzaq və enerji təhlükəsizliyi, genişmiqyaslı layihələr, quruculuq işləri, həyata keçirilən islahatlar, təhsil, səhiyyə, mədəniyyət sahələrində yüksəktempli inkişaf, insanların məşğulluğunun və asudə vaxtının səmərəliliyi istiqamətində görülən işlər fonunda başlıca hədəfin əhalinin rifahı olduğu aydın şəkildə görünür. Muxtar respublikanın inkişafı ilə sakin qayğısının eyni xətlə paralel yüksəlişini ötən illərin hər birinin xronikasında izləmək mümkündür. Bunu aprel ayının mənzərəsində də gördük.***

Muxtar respublikada yaşıllıqların artırılması ötən illərin prioritet məsələlərindən ən başlıcası olmuşdur. Blokadanın ilk illəri təbii qazın və elektrik enerjisinin olmaması səbəbindən kəsilərək oduncaq kimi istifadə edilən ağaclar diyarımızın yaşıl örtüyünə ciddi ziyan vurmuşdu. Ötən illər yüz hektarlarla meyvə bağı və yaşıllıq zolaqlarının salınması, iməciliklər zamanı yeni ağacların əkilməsi, təmizlik və səliqə-sahman işlərinin görülməsi ekoloji tarazlıqla yanaşı, həm də insan sağlamlığının qorunmasına öz töhfələrini vermiş, nəticədə, muxtar respublika ərazisinin 20 faizə yaxını yaşıllıqlara çevrilmişdir. Çünki yaşıllıq, ilk növbədə, mədəniyyət, insan sağlamlığının ən mühüm şərtlərindən biridir.

Bu gün muxtar respublikamızın inkişaf səviyyəsini göstərən amillərdən biri də ekoloji məsələlərə münasibətdir. Aprelin 4-də keçirilən iməcilikdə bunun bir daha şahidi olduq. Həmin gün muxtar respublikada, ümumilikdə, 17 hektardan artıq yeni meyvə bağı və yaşıllıq zolaqları salınmış, 11 min 500 ting əkilmişdir. Bu ilin yazında muxtar respublikada 262 hektar sahədə meyvə bağlarının salınması, 109 mindən artıq müxtəlif meyvə tinglərinin əkilməsi nəzərdə tutulmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov iməcilikdə iştirak etmiş, meyvə tingləri əkmiş, yaz əkini mövsümündə meyvə bağlarının salınmasının davam etdirilməsi və yaşıllıqlara qulluq göstərilməsi barədə tapşırıqlar vermişdir.

Muxtar respublikada aqrar sahədə həyata keçirilən uğurlu siyasət əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təmin olunmasına, kənd təsərrüfatının bütün sahələrinin inkişafına geniş imkanlar açmışdır. Kənd təsərrüfatının yüksək sürətlə inkişafı isə əkin dövriyyəsinə yeni torpaq sahələrinin qatılmasını zəruri etmişdir. Əkin üçün yararsız hesab edilən və uzun illər istifadəsiz qalan torpaq sahələrinə yeni suvarma kanallarının çəkilməsi, müasir meliorasiya və irriqasiya sistemlərinin qurulması əkinçilikdə yüksək məhsuldarlığın əldə olunmasına imkan verir. Nəticədə, torpaq mülkiyyətçiləri, ailə təsərrüfatları və fermerlər bol məhsul istehsal edərək ərzaq təhlükəsizliyinin təmin olunmasında yaxından iştirak edir, bazarın tələbatı yerli istehsal hesabına ödənilir.



Həyata keçirilən tədbirlərin davamı kimi yeni nasos stansiyaları tikiləcək, təzyiqli boru xətləri çəkiləcəkdir ki, bununla Kəngərli rayonunda və Naxçıvan şəhərində 14 min hektar yeni torpaq sahəsi əkin dövriyyəsinə qatılacaq, 5 min hektar torpaq sahəsinin isə su təminatı yaxşılaşdırılacaqdır. Aprelin 4-də Ali Məclisin Sədri nasos stansiyalarının layihəsinə baxmış, həyata keçiriləcək tikinti işləri ilə maraqlanmış, tikintiyə başlanılması və keyfiyyətlə aparılması, nasos stansiyalarını nəzərdə tutulan vaxtda istismara verilməsi və əkinəyararlı torpaqlardan səmərəli istifadə ilə bağlı tapşırıqlar vermişdir.

Kənd təsərrüfatının inkişafı istiqamətində həyata keçirilən tədbirlərin sırasında strateji əhəmiyyətli istehsal sahələrindən olan toxumçuluq da diqqətdə saxlanılır. Hazırda muxtar respublikada toxuma olan tələbatı ödəmək və toxumluq məhsulların istehsalını artırmaq məqsədilə ardıcıl tədbirlər görülür, yeni toxumçuluq təsərrüfatları yaradılır, iqlim və torpaq xüsusiyyətlərinə uyğun məhsuldar toxum sortları yetişdirilir.

Məlum olduğu kimi, ötən ilin dekabr ayında dünyada yayılmağa başlayan, cari il mart ayının sonlarında isə ölkəmizdə müşahidə edilən koronavirus infeksiyası sərhədlərin bağlanması ilə dövlətləri bir sıra çətinliklərlə üz-üzə qoydu. Ötən dövr kənd təsərrüfatının inkişafını, ərzaq təhlükəsizliyini, ən əsası isə idxaldan asılı olmamağın vacibliyini meydana çıxardı və belə hadisələrə həmişə hazırlıqlı olmağın zəruriliyini ortaya qoydu. Muxtar respublikada aqrar sahənin həqiqətən böyük əhəmiyyətə malik olması nəzərə alınmaqla kənd təsərrüfatı məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsi və ixrac imkanlarının artırılması istiqamətində mühüm tədbirlər görülmüşdür. Aparılan məqsədyönlü siyasət nəticəsində Naxçıvan ağır blokada şəraitində olmasına rəğmən bu çətin sınaqdan uğurla çıxmağa müvəffəq olmuşdur. Bu gün muxtar respublikamızın belə bir şəraitdə də heç bir iqtisadi problemlə üzləşməməsi iqtisadi strategiya baxımından nümunə gücündədir. Bu, aprelin 9-da Naxçıvan şəhərində "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün yeni kompleksin istifadəyə verilməsi tədbirində Ali Məclis Sədrinin çıxışında da xüsusi vurğulanmışdır: ***"Dünyada hansı proseslərin baş verməsindən asılı olmayaraq, kənd təsərrüfatı mütləq inkişaf etdirilməlidir. Bu gün dünyada o ölkələr pandemiya ilə rahat mübarizə apara bilirlər ki, həmin ölkələrdə ərzaq təhlükəsizliyi təmin olunub. Kənd təsərrüfatı iqtisadiyyatın lokomotividir. Ona görə də kənd təsərrüfatı inkişaf etdirilməlidir ki, ölkədə digər sahələrin inkişafı da təmin olunsun. Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlər, kənd təsərrüfatının inkişafı qarşıdakı illərdə də məhsul bolluğu yaradacaqdır. Məqsəd ondan ibarətdir ki, kənd təsərrüfatı sahəsində əhalinin məşğulluğu təmin olunsun, məhsul istehsalı daha da artsın. Bunun üçünsə, şərait yaradılmalı, mütərəqqi suvarma üsulları tətbiq olunmalı, müasir texnikalar alınıb gətirilməli və yüksək keyfiyyətə malik məhsuldar toxumlardan istifadə olunmalıdır. Bu gün istifadəyə verilən "Bərəkət Toxumçuluq" Məhdud Məsuliyyətli Cəmiyyəti qeyd olunan tələblərə cavab verən toxumçuluq təsərrüfatıdır. Təsərrüfat müasir texnikalarla təmin olunub, kollektiv formalaşıb və əkin sahələrində mütərəqqi suvarma sistemləri qurulub".***

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında kollektivə uğurlar arzulamış, toxumçuluq təsərrüfatının qurulmasında əməyi olanlara təşəkkür etmiş, keyfiyyətli toxum sortlarının yetişdirilməsi, bazarın qorunması, toxuma və qüvvəli yemə olan tələbatın yerli istehsal hesabına ödənilməsi, aid qurumlarla birlikdə məhsuldar toxum sortlarından istifadə ilə bağlı maarifləndirici tədbirlərin həyata keçirilməsi barədə tapşırıqlar vermişdir.

Ölkəmizdə ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və muxtar respublikamızda da illərdən bəri böyük vüsət alan quruculuq siyasəti illər öncə ilə bu gün arasında qürurverici bir fərqin yaranmasına səbəb olmuşdur. Diyarımızın elə bir bölgəsi yoxdur ki, quruculuqla

*Ardı 2-ci səhifədə*

abadlığa qovuşmamış olsun. Bu, muxtar respublikanın ən böyük yaşayış məntəqəsi olan, həm də kompleks inkişafı təmin edilən Şərur rayonunun simasında da aydın görünür. Aprelin 12-də Şərur şəhərində Mərasim evi və dini icma üçün iş otaqlarının və "Çomaxtur" elektrik yarımstansiyasının istifadəyə verilməsi, Şərur şəhərində yeni avtovağzalın inşa olunmasına və rayonun 7 yaşayış məntəqəsini birləşdirən avtomobil yolunun yenidən qurulmasına başlanılması bölgənin daha da inkişafını şərtləndirən amillərdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov həmin gün Şərur rayonunda olmuş, tədbirlərdə iştirak etmişdir. Mərasim evinin binasında yaradılan şəraitlə tanış olan Ali Məclisin Sədri demişdir: ***"Muxtar respublikada mərasim evlərinin tikintisi geniş vüsət almışdır. Bu gün də Şərur şəhərində yeni mərasim evi istifadəyə verilir. Binada yas mərasimlərinin keçirilməsi ilə yanaşı, həm də rayon dini icması üçün lazımi şərait yaradılmışdır. Mərasim evlərinin tikintisi üçün iş adamları və sakinlər tərəfindən göstərilən təşəbbüs dövlət tərəfindən dəstəklənir, şərait yaradılır, köməklik göstərilir. Bütün bunlar da ölkəmizdəki inkişafın, sabitliyin və dövlət-xalq birliyinin nəticəsidir. Ona görə də yaradılan şəraitdən səmərəli istifadə olunmalı, dini dəyərlərimiz qorunub saxlanılmalıdır".***

Dayanıqlı elektrik enerjisi təminatı yaratmadan iqtisadiyyatın inkişafını təmin etməyin mümkün olmadığını, ona görə də muxtar respublikada elektrik enerjisi təminatı sahəsində mühüm işlərin görüldüyünü, yeni günəş və su elektrik stansiyalarının tikildiyini, yarımstansiyaların qurulduğunu, elektrik xətlərinin çəkildiyini bildirən muxtar respublika rəhbəri "Çomaxtur" elektrik yarımstansiyasına baxmış, muxtar respublika energetiklərinə təşəkkür etmiş, yarımstansiyanın istifadəyə verilməsi münasibətilə kollektivə təbriklərini çatdırmışdır.

Ali Məclisin Sədri Şərur şəhərində yeni avtovağzalın tikintisinə başlanılması və avtomobil yolunun qurulmasında mühəndis-texniki tələblərə əməl olunması, tikinti işlərinin keyfiyyətlə aparılması barədə tapşırıqlar vermişdir.

Naxçıvan abidələr diyarı, hər daşı, hər qayası qədimlərdən xəbər verən bir tarixdir. Son illər Ali Məclis Sədrinin imzaladığı dövlət sənədlərinə əsasən tarixi abidələrin qorunması, tədqiqi, bərpası və tanıdılması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Həmin tədbirlərin davamı kimi, Naxçıvan şəhərindəki Yusif Küseyir oğlu türbəsi də bərpa olunmuşdur.

Aprelin 15-də türbədə aparılan bərpa işləri ilə maraqlanan Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin ***"Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən diyardır"*** fikrini xatırladaraq tariximizi yaşadan abidələr sırasında 850 il bundan əvvəl memar Əcəmi Naxçıvani tərəfindən tikilmiş, el arasında isə "Atababa günbəzi" kimi tanınan Yusif Küseyir oğlu türbəsinin özünəməxsus yeri olduğunu vurğulamışdır. Muxtar respublika rəhbəri türbənin bərpaçılarına təşəkkürünü bildirərək demişdir: ***"Tarixi abidələri qoruyub saxlamaq onu tikməkdən daha çətindir. Yusif Küseyir oğlu türbəsi tikildiyi dövrdən bugünə qədər qorunub saxlanılmışdır. Bərpadan sonra isə abidəyə ikinci həyat verilmişdir. Abidələrin pasportlaşdırılması, onların qorunması və bərpası vacib məsələdir. Çünki abidələr xalqımızın daş pasportudur. Tarixi abidələr xalqın neçə yüz il bundan əvvəl hansı mədəniyyətə malik olduğunu təsdiq edir. Ona görə də abidələr qorunmalı, ilkin görkəmi saxlanılmaqla bərpa olunmalı və gələcək nəsillərə çatdırılmalıdır".***

Muxtar respublikamızda tarixi abidələr qədər milli-mənəvi dəyərlərimizin qorunub yaşadılması da həmişə diqqət mərkəzində olmuşdur. Bu istiqamətdə həyata keçirilən tədbirlər sırasında dini abidələrin bərpası xüsusi yer tutur. Qədim ziyarətgahlar və məscidlər bərpa olunaraq dindarların istifadəsinə verilir. Aprelin 15-də Ali Məclis Sədrinin Ordubad şəhərindəki XVII-XVIII əsrlərə aid olan Cümə məscidinin bərpa layihəsi ilə tanış olması və bərpa işlərinə başlanılması istiqamətində verdiyi müvafiq tapşırıqlar bu qədim diyarın yenidən həyat verilən tarixi abidələri və milli dəyərlərimizə həssas münasibət fonunda deməyə əsas verir ki, bəli, tarixi yaşadanları tarix özü yaşadacaq.

Ötən ay muxtar respublikanın hərtərəfli inkişafına xidmət edəcək dövlət sənədləri imzalanmışdır. Bunlardan biri, Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə "Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2020-ci il 17 aprel tarixli Fərman və bu fərmanla təsdiq edilmiş nazirliyin yeni əsasnaməsi muxtar respublika üçün böyük əhəmiyyətə malik olan bu sahənin inkişafını daha da stimullaşdıracaqdır. Digəri isə ötən ay muxtar respublikada daha yeni bir dövlət qurumunun publik hüquqi şəxsə çevrilməsidir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 22 aprel tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin əsasında publik hüquqi şəxs statuslu Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti yaradılmış, həmin fərmanla xidmətin nizamnamə və strukturu təsdiq edilmişdir. Bununla muxtar respublikada sığorta işi sahəsində də fəaliyyətin təkmilləşdirilməsi, Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin təşkilati-hüquqi formasının və strukturunun mövcud tələblərə uyğunlaşdırılması təmin olunmuşdur ki, bu da iqtisadiyyatın tərkib hissəsi olan sığorta sisteminin imkanlarından geniş və səmərəli istifadə edilməsini şərtləndirən amildir.

Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"...Naxçıvan uzun illər ərzində mühasirə şəraitində yaşayır, üç tərəfdən düşmənlə əhatə olunub. Buna baxmayaraq, respublika yaşayır, güclənir və böyük inkişaf yolunu davam etdirir. Çətin coğrafi vəziyyəti nəzərə alaraq, ilk növbədə, Naxçıvanda təhlükəsizlik tədbirləri diqqət mərkəzindədir. Son illər ərzində bu istiqamətdə böyük işlər görülüb, ordu quruculuğu sahəsində böyük inkişaf var".***

Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulan ordu quruculuğu dövlət başçısının həyata keçirdiyi uğurlu tədbirlər sayəsində bu gün böyük inkişaf yolundadır. Bu, strateji ərazidə yerləşən muxtar respublikamızda da hərbi hissələrin maddi-texniki təminatının möhkəmləndirilməsinə və şəxsi heyətin döyüş hazırlığının artırılmasına səbəb olmuşdur. Hər il muxtar respublikada yeni xidmət və yaşayış komplekslərinin tikilməsi ilə yanaşı, həm də hərbi hissələr üçün müxtəlif təyinatlı avtomobil və texnikalar alınaraq istifadəyə verilir. Həmin tədbirlərin davamı olaraq aprelin 23-də Naxçıvan Muxtar Respublikası büdcəsinin qənaəti hesabına alınmış 10 "Qazel" markalı yük, eləcə də "Ford" və "Volkswagen" markalı 2 minik avtomobili Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinə təqdim olunmuşdur. Ali Məclisin Sədri cənab Vasif Talıbov yeni avtomobillərə baxmış, onlardan təyinata uyğun istifadə olunması barədə tapşırıqlar vermiş, yeni avtomobil və texnikaların təqdim olunması münasibətilə şəxsi heyəti təbrik etmişdir.

Sərhəd yaşayış məntəqələri muxtar respublikada hərtərəfli qayğı ilə əhatə olunan bölgələrdir. Bu baxımdan coğrafi mövqeyinə görə mühüm strateji bölgədə yerləşən Sədərəyə daim diqqət göstərilmiş, rayonun sosial-iqtisadi inkişafı sürətləndirilmiş, geniş quruculuq işləri aparılmışdır. Rayonda təhsil və səhiyyə müəssisələri, inzibati və yaşayış binaları, sənaye müəssisələri tikilmiş, məşğulluq təmin edilmişdir. Yeni içməli su və kanalizasiya sistemlərinin qurulması da bu sahədə görülən işlərin davamıdır. Aprelin 23-də muxtar respublika rəhbəri Sədərək rayonunda yeni içməli su təchizatı və kanalizasiya sistemlərinin qurulması layihəsinə baxmış, sistemlərin dövlət vəsaiti hesabına qurulduğunu bildirmiş, tikinti işlərinin keyfiyyətlə aparılması, vaxtında başa çatdırılması barədə tapşırıqlar vermiş və demişdir ki, Sədərəkdə içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi rayonun bütün yaşayış məntəqələrini əhatə edir. Layihəyə uyğun olaraq Heydərabad qəsəbəsində, Sədərək və Qaraağac kəndlərində 155 kilometrə yaxın içməli su, 145 kilometrə yaxın isə kanalizasiya xətləri çəkiləcək, 3600-dən artıq su və kanalizasiya ev birləşmələri aparılacaqdır. Ölkəmizdə həyata keçirilən dövlət proqramları çərçivəsində görülən bu işlər Sədərək rayonunu müasir yaşayış məntəqəsinə çevirəcək, əhali təmiz və dayanıqlı içməli su ilə təmin olunacaq, məskunlaşma artacaqdır.

Sədərəkdə yeni torpaq sahələrinin ordumuzun nəzarətinə keçməsi bu yerin alınmaz qala olması ilə yanaşı, həm də Əlahiddə Ümumqoşun Ordunun maddi-texniki bazasının gücləndirilməsini, şəxsi heyətin döyüş qabiliyyətinin və peşəkarlığının artırılması sayəsində istənilən tapşırığın uğurla yerinə yetirilməsini təsdiq edir. Artıq Sədərək rayonunda işğaldan azad edilən torpaqlar minalardan təmizlənərək əkin dövriyyəsinə qatılmışdır. Aprelin 23-də Ali Məclisin Sədri həmin ərazilərdə olmuş, görülən işlərlə maraqlanmış, bu işlərdə əməyi olanlara təşəkkür edərək demişdir ki, həyata keçirilən tədbirlər nəticəsində 2010-cu ildən etibarən bu ərazilər Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nəzarətinə keçdi. Ötən dövrdə ərazinin minalardan təmizlənməsinə başlanılmış, meliorativ tədbirlər görülmüş, nəzarətə keçən torpaqların 73 hektarı əkin üçün yararlı vəziyyətə gətirilmişdir. Hazırda ordumuz tərəfindən ərazilər tam nəzarət altında saxlanılır ki, bu da əkin işlərinin rahat şəkildə həyata keçirilməsinə imkan verir. Bundan sonra nəzarət altındakı digər ərazilərdə də işlər davam etdirilməli, minalardan təmizlənməli, yeni torpaq sahələri əkin dövriyyəsinə qatılmalı, Sədərək rayonunun əkinəyararlı torpaqlarının sahəsi genişləndirilməlidir.

Həmin gün muxtar respublika rəhbəri Heydərabad qəsəbəsindəki əsgəri yaşayış kompleksində ötən ildən başlayaraq aparılan yenidənqurma işləri ilə maraqlanmış, şəxsi heyətlə görüşmüş, ərazinin bundan sonra da etibarlı müdafiə olunacağına və qarşıya qoyulan vəzifələrin uğurla yerinə yetiriləcəyinə əminliyini bildirmişdir. Ali Məclisin Sədri Sədərəkdə müdafiənin ön xəttində də olmuş, müşahidə məntəqəsində mövqelərimizin vəziyyəti və xidmətin təşkili ilə maraqlanmış, müdafiənin təşkili sahəsində həyata keçirilən tədbirlərin davam etdirilməsinin vacibliyini bildirmiş, xidmətin təşkili, eləcə də döyüş hazırlığının və intizamın gücləndirilməsi ilə bağlı müvafiq tapşırıqlar vermişdir.

*Bəli, 30 il əvvəlki Naxçıvanla 30 il sonrakı Naxçıvan arasındakı müqayisəolunmaz fərq, təbii ki, burada yaşayan əhalinin də həyatında əsaslı dəyişikliklərə səbəb olmuşdur. İlk növbədə, sabitlik, təhlükəsizlik, daha sonra isə muxtar respublikanın quruculuq xətti və hərtərəfli dinamik inkişafı, zəhmət adamından alimindək hər bir insana xüsusi qayğı ilə yanaşılması, islahatların aparılması, yeni iş yerlərinin yaradılması, əhali rifahının əsas prioritet olması Heydər Əliyev siyasətinin uğurlu davamının göstəriciləridir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi:* ***"Naxçıvanda hər bir sahədə uğurlu inkişaf gedir, hər bir sahəyə böyük diqqət göstərilir. Bu, məni çox sevindirir. Çünki bu, Heydər Əliyev siyasətinin təntənəsidir".***

**✍ Mətanət MƏMMƏDOVA**

## Birdəfəlik maddi yardımın ödənilməsi muxtar respublika üzrə 608 nəfərə şamil olunacaq

Qələbə günü ərəfəsində ölkə başçısının müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması artıq ənənə halını almışdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" 2020-ci il 24 aprel tarixli Sərəncamı bu kateqoriyadan olan vətəndaşların xüsusi diqqət və qayğı ilə əhatə olunduqlarının növbəti təzahürüdür.

Sərəncamda İkinci Dünya müharibəsində Qələbənin 75-ci ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçılarına 1500 manat məbləğində birdəfəlik maddi yardım verilməsi nəzərdə tutulur. İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına isə 750 manat məbləğində birdəfəlik maddi yardım veriləcək.

Sərəncam muxtar respublika üzrə, ümumilikdə, 608 nəfərə şamil olunacaq. Onlardan 17-si İkinci Dünya müharibəsinin iştirakçısı, 591 nəfər isə İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadları, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş və sərəncamda nəzərdə tutulan digər müvafiq şəxslərdir. Sərəncamın yüksək səviyyədə icrası təmin edilməklə, birdəfəlik maddi yardım İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin bank hesablarına köçürüləcək.

İkinci Dünya müharibəsi iştirakçılarına və digər şəxslərə hər il Qələbə günü ərəfəsində verilən birdəfəlik maddi yardımın məbləği də mütəmadi artırılır. Bu istiqamətdə növbəti artım kimi, ötənilki illə müqayisədə hazırda həmin şəxslər üçün nəzərdə tutulan birdəfəlik maddi yardımın məbləği də 50 faiz artırılmışdır. Bütün bunlar bir daha təsdiqləyir ki, müharibə veteranlarına hərtərəfli qayğı və diqqət Azərbaycanda dövlət siyasətinin başlıca prioritetlərindən biridir.

İkinci Dünya müharibəsinin veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdikləri qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 75 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Üzümçülük təsərrüfatı fəaliyyətini genişləndirir

Muxtar respublikamızda kənd təsərrüfatının bütün sahələri kimi, üzümçülüyün də inkişafı diqqət mərkəzində saxlanılır, görülən tədbirlər nəticəsində hər il bağlardan tonlarla məhsul tədarük olunur. Müqayisə üçün bildirək ki, ötən il Naxçıvan Muxtar Respublikasında, ümumilikdə, 1400 hektardan çox sahədə üzüm bağı salınıb, 16 min 700 tondan çox məhsul götürülüb.



2015-ci ildə Babək rayonunun Nehrəm kəndində yaradılan və 250 hektar sahəni əhatə edən "Sumqala" üzümçülük təsərrüfatı da daxili bazarın tələbatını ödəyən və ixrac imkanlarına malik olan təsərrüfat sahələrindəndir. Ötən il təsərrüfatın 80 hektarlıq üzüm bağından min tondan çox məhsul götürülüb. Yığılan məhsullar yerli tələbatı ödəməklə yanaşı, Bakı şəhərinə, həmçinin Rusiya və Ukrayna bazarlarına da ixrac olunub. Cari ildə təsərrüfat daha da genişləndirilib. Burada 14 xarici və 10-a yaxın yerli üzüm sortu yetişdirilir. Xaricdən "Sultanina", "Viktoria", "Kardinal" və digər üzüm sortları calaq edilmiş formada gətirilib. Hazırda üzüm bağlarında becərmə, yaşıl budama və aqrotexniki qulluq işləri aparılır, "mildiu" və "oidium" xəstəliklərinin qarşısını almaq məqsədilə üzüm tənəklərinə xüsusi texnikalarla "Kumulus" dərmanı səpilir. Bağların suvarılması üçün Gilançaydan kaptaj üsulu ilə su xətti çəkilib, həmçinin Bənəniyar Su Anbarının imkanlarından da istifadə olunur. Səmərəliliyi artırmaq üçün suvarmada damcı üsuluna üstünlük verilir.

Qeyd edək ki, bağdakı işlərin optimal müddətdə başa çatdırılması üçün 200-dən artıq işçi çalışır. Beş ildir ki, yaradılan təsərrüfatda üzümçülüklə yanaşı, alma və qarşıq meyvə bağları da vardır. Meyvə bağlarında aqrotexniki qulluq işləri artıq başa çatıb.

Gələcəkdə meyvə və üzüm sirkələri, müxtəlif mürəbbə, üzüm bəkməzi, alma və arik cemləri istehsalı sahələrinin də yaradılması nəzərdə tutulub.

**Xəbərlər şöbəsi**

# Xalçaçılıq sənəti əsrlərin yadigarı olan milli sərvətimizdir



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikasında “Xalçaçı günü” peşə bayramının təsis edilməsi haqqında” 2016-cı il 25 noyabr tarixli Sərəncamına əsasən hər il mayın 5-i ölkəmizdə “Xalçaçı günü” peşə bayramı kimi qeyd edilir.***

Azərbaycanda toxuculuğun tarixi 5-7 min il bundan əvvələ gedib çıxır. Naxçıvanda duz istehsalına başlanması, duzun tədavülü və daşınmasında torba və xurcunlardan istifadə toxuculuq sənətinin də qədim tarixindən xəbər verir. Toxuculuğun inkişafı isə xalçaçılıq sənətinin yaranması üçün geniş imkanlar açmışdır. Herodot, Klavdi Elian, Ksenofont və digər qədim dünya tarixçilərinin əsərlərində, “Kitabi-Dədə Qorqud” dastanında, Nizami Gəncəvinin yaradıcılığında Azərbaycan xalçaları haqqında məlumatlar verilmiş, bu dəyərli mədəni irsimiz tərənnüm olunmuşdur. Görkəmli Azərbaycan və dünya rəssamlarının tablolarında da təsvir olunan xalçalarımız bu gün dünyanın məşhur muzeylərinin ən dəyərli eksponatlarındandır.



***“Hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bu günüdür”***, – deyən Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev ölkəmizə rəhbərlik etdiyi hər iki dövrdə xalçaçılığın yaşadılması və inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. Ötən əsrin 70-ci illərində Azərbaycanda Xalça Muzeyinin yaradılması, bu sahə ilə məşğul olan tədqiqatçıların, xalçaçıların diqqət və qayğı ilə əhatə edilməsi ulu öndərimizin mühüm xidmətlərindəndir. Xalçaçılıq sənətinin inkişafı sahəsində aparılan iş bu gün uğurla davam etdirilir. Ölkə rəhbərinin mədəniyyətimizin inkişafı ilə bağlı tövsiyə və tapşırıqları milli-mənəvi dəyərlərimizin, xalq sənəti növlərinin mühafizəsi və inkişafı üçün zəmin yaratmışdır. Bu baxımdan “Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında” Azərbaycan Respublikası Qanununun qəbul olunması xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi üçün yeni binanın inşa edilməsi barədə 2007-ci ildə imzaladığı Sərəncam bu sənətə verilən yüksək qiymət və qayğının ifadəsidir. 2010-cu ildə xalça sənətimiz YUNESKO-nun qeyri-maddi mədəni irs üzrə reprezentativ irs siyahısına daxil edilmişdir. Azərbaycan Prezidentinin 2018-ci il 28 fevral tarixli Sərəncamı ilə “Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” təsdiq olunmuşdur.

Azərbaycan xalçaçılıq sənəti tarixində Naxçıvan xalçaçılıq məktəbinin də özünəməxsus yeri və rolu vardır. Zəngin koloriti, təkrarsız naxışları və orijinal kompozisiyaları ilə seçilən Naxçıvan xalçaları Azərbaycan xalça sənətini ənənəvi naxış və elementləri, özünəməxsus rəng çalarları ilə zənginləşdirmişdir. Tarixən Naxçıvanda xalqımızın qədim mədəniyyətini, məşğuliyyətini və həyat tərzini özündə əks etdirən dəyərli xalça nümunələri yaradılmış, bu sənət nəsildən-nəslə ötürülərək yaşadılmışdır. Xüsusilə heyvandarlığın və qoyunçuluğun inkişafı xalçaçılıq sənətinin formalaşmasında mühüm amil olmuşdur. Xalçaçılığın inkişafı isə boyaqxanaların yaranmasını zəruri etmiş, boyaqçılar bu torpaqda bitən gül-çiçəklərdən, ağac qabıqlarından istifadə edərək min illərin yadigarı olan və əlvanlığını itirməyən xalçalarımızın təbii rəngini almışlar. Naxçıvan xalçalarının, ümumilikdə, özünəməxsus çalarları vardır. Bu elementlərdən şaquli istiqamətli zolaqlar, romblar, qarmaqlı həndəsi elementlər və nəbati ornamentlər, heyvan təsvirləri kimi naxışlar xalqın genetik yaddaşından silinməyən inanc və təsəvvürlərlə bağlıdır. Xovsuz xalça növündə atların, atlıların və dəvələrin, çullarla bəzədilmiş dəvə karvanının təsviri, xovlu xalçaların bəzəyinə çevrilən buta elementi Naxçıvan xalçalarını öz spesifik toxunuşu və bədii quruluşu ilə fərqləndirir. Araşdırmalar nəticəsində xalçaçılıq sənətinə daxil olan keçəçiliyin lap qədim dövrdə mövcud olduğunu qeyd etmək olar.

Tariximiz qədər qədim olan xalçaçılıq və bununla bağlı sənət sahəsi Naxçıvanda Tunc dövründən başlayaraq inkişaf etmiş, daha da zənginləşərək bu günümüzə gəlib çatmışdır. Orta əsr ərəbdilli mənbələrdə Naxçıvanda xalçaçılığın inkişafı və bu ərazidə toxunan xalçaların dünya bazarında satılması haqqında maraqlı məlumatlara rast gəlmək mümkündür. Miladi tarixi ilə 982-ci ildə ərəb dilində yazılmış “Hüdüd-əl-Aləm” (“Dünyanın sərhədləri”) adlı əsərdə Naxçıvanda toxuculuğun inkişafı haqqında qeydlər öz əksini tapmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Xalça toxumaq sənəti tarixən Azərbaycanda, o cümlədən Naxçıvanda aparıcı peşə sahələrindən biri olmuşdur. Təbiəti, ictimai və mədəni inkişaf səviyyəsi, həyat və məişət şəraiti Naxçıvanda xalçaçılığı hələ uzaq keçmişlərdə sənətkarlığın mühüm sahələrindən birinə çevirmişdir. Bu ərazidə istehsal edilən iri ölçülü, qalın toxunuşa malik xovlu və xovsuz xalçalardan məişətdə geniş istifadə edilmişdir. Arxeoloji qazıntılar zamanı əldə olunmuş ibtidai gil cəhrələr və sümükdən hazırlanmış iy ucları Naxçıvanın qədim toxuculuq mərkəzlərindən biri olduğunu təsdiq edir.”***







Qədim ənənələrə malik xalçaçılıq sənəti bu gün də Naxçıvanda yaşadılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamı bu qədim sənətin inkişafı və təbliği sahəsində də yeni imkanlar açmışdır. Naxçıvanda xalça sənətinin inkişafı üçün görülən işlərin miqyası genişdir. Naxçıvan Dövlət Xalça Muzeyi ölkəmizdə müstəqillik illərində yaradılan ilk muzeylərdəndir. 1998-ci ildə yaradılan bu muzey 2010-cu ildə yeni binaya köçürülmüşdür. Yarandığı vaxt 359 eksponatla fəaliyyətə başlayan muzeyin eksponatlarının sayı bu gün 3 mindən artıqdır. 2013-cü ildə muzey yenidən qurulmuşdur. Həmin il “Naxçıvan xalçaçıları” kitabının, “Azərbaycan xalçaları: Naxçıvan qrupu” jurnalının, “Naxçıvan xalçaları” sənədli filminin və muzeyin internet saytının təqdimat mərasimi olmuşdur. Azərbaycan, ingilis və rus dillərində nəşr olunmuş “Naxçıvan xalçaçıları” kitabında 254 toxucu haqqında məlumatlar toplanmışdır. Muzeyin internet saytının yaradılması dünyanın hər yerindən muzeyi virtual ziyarət etməyə, ziyarətçilərin ekspozisiyadakı eksponatlarla bağlı məlumatlar almalarına, həmçinin tarixi keçmişimizi öyrənmələrinə imkan yaratmışdır. Muzeyin ekspozisiyasında 264 xovlu və xovsuz xalça, müxtəlif əl işləri, tikmələr, toxuculuq alətləri, 60 mis və saxsı qab nümayiş etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamına uyğun olaraq Naxçıvan Dövlət Xalça Muzeyinə də ekskursiyalar təşkil olunur. Bu gün Naxçıvan Dövlət Xalça Muzeyi mədəni mərkəzə çevrilmişdir. Burada xalçaçılıqla bağlı mütəmadi sərgilər təşkil olunur, kitab təqdimatları, elmi konfranslar keçirilir. Hazırda muzey günün tələblərinə uyğun olaraq, öz fəaliyyətini onlayn şəkildə davam etdirir. Muzeyin sosial şəbəkə hesablarından ekspozisiyasında nümayiş etdirilən eksponatları izləmək mümkündür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq olunan “Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı” bu sahədə görülən işləri daha da sürətləndirmiş, xalçaçılıq ənənələrinin dərindən öyrənilməsi, araşdırılması və təbliği üçün geniş imkanlar açmışdır. Dövlət proqramında milli xalçaçılıq ənənələrinin qorunması və inkişaf etdirilməsi, ixrac potensialının artırılması və əhalinin məşğulluğunun təmin edilməsi yeni vəzifələr kimi müəyyənləşdirilmişdir. Dövlət proqramının icrası ilə bağlı yaradılmış “Əllə toxunmuş xalçaların reyestri sistemi”nə 585 xalça haqqında məlumatlar daxil edilmişdir.

Muxtar respublikada xalq yaradıcılığı sahələrinin inkişafı, insanların bu sənətə olan marağının artırılması məqsədilə Şərur rayonundakı Cəlilkənddə XIX əsrə aid “Buzxana” Kompleksində xalçatoxuma sahəsi fəaliyyətə başlamışdır. Həmçinin “Ənənəni qoruyaq, evdə xalça toxuyaq” sosial layihəsi çərçivəsində naxçıvanlı xalçaçı qadınlarla müqavilələr bağlanılmış, milli çeşnilər əsasında evlərdə xalça toxunması məqsədilə onlar material və avadanlıqlarla təmin olunmuşlar. Bu, məşğulluğu təmin etməklə yanaşı, həm də xalçaçılıq sənətinin yaşadılması istiqamətində atılan mühüm addımlardandır.

Xalçaçılıq sahəsini inkişaf etdirmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması da davam etdirilmişdir. Hazırda Naxçıvan şəhərində xalça istehsalı emalatxanasının tikintisi davam etdirilir.

Bu gün Naxçıvan Dövlət Xalça Muzeyində, Naxçıvan Dövlət Universitetində və Naxçıvan Müəllimlər İnstitutunda Təsviri incəsənət ixtisası üzrə təhsil alan tələbələrin iştirakı ilə açıq dərslər təşkil olunur. Muxtar respublikanın bölgələrində xalçaçılıq kursları fəaliyyət göstərir. Xalçatoxuyanlar üçün lazımi şərait yaradılır. Həmçinin Naxçıvan Regional Peşə Tədris Mərkəzində xalçaçılıq üzrə peşə kurslarının, Naxçıvan Qızlar Liseyində “Tikiş, toxuculuq və xalçaçılıq” dərnəyinin fəaliyyət göstərməsi, “Naxçıvan Biznes Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyətinin xalq yaradıcılığı emalatxanasında xalça toxunmasının təşkili, muxtar respublikanın kəndlərində xalçatoxuyan qadınların hana və digər zəruri ləvazimatlarla təmin olunması xalçaçılığın inkişafına öz töhfəsini verir.

*Xalqımızın istedad və bacarığını, tükənməz sənət imkanlarını göstərən xalçaçılıq əbədiyaşar sənətdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Naxçıvan xalçaları, sadəcə xalça deyil, bunlar həm də xalqımızın tarixini, mədəniyyətini, incəsənətini və məişət tərzini özündə yaşadan qiymətli nümunələrdir. Ona görə də bu nümunələrin öyrənilməsi, tədqiqat işlərinin davam etdirilməsi bundan sonra da diqqət mərkəzində saxlanılmalıdır”.***

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Onlayn konfrans keçirilib

***“Naxçıvan” Universitetinin təşkilatçılığı ilə Türkiyə və Azərbaycanın bir sıra ali təhsil ocaqlarının müəllimləri, turizm sahəsi üzrə mütəxəssislər arasında “Koronavirus pandemiyasından sonra turizm sahəsində görüləcək tədbirlər və fürsətlərin araşdırılması: Naxçıvan modeli” mövzusunda onlayn konfrans keçirilib.***

Diskussiya şəklində keçirilən onlayn konfrans “Koronavirusla mübarizədə Naxçıvan modeli: Sosial, iqtisadiyyat və turizm sahələrinə təsiri”, “Naxçıvan Muxtar Respublikasının turizm potensialı və koronavirus pandemiyasından sonrakı dövrdə bu potensialdan ən səmərəli istifadə imkanları”, “Koronavirus sonrası ehtimal olunan turizm təsirləri: Avropa və Türkiyə, pandemiya sonrası istehlakçı və turist davranışlarındakı dəyişiklik”, “Naxçıvanda turizmin inkişaf faktorları və perspektivləri” və digər mövzuları əhatə edib.




İstanbul Universitetinin professoru Haluk Tanrıverdi, Arif Yılmaz, Sercan Yıldız və digərlərinin çıxışlarında qeyd olunub ki, dünyada geniş yayılmış pandemiyaya qarşı muxtar respublikada çox ciddi mübarizə tədbirləri görülüb və nəticədə, virusun yayılmasının qarşısı alınıb. İllərdir, atılan mütərəqqi addımlar sayəsində əhalinin yerli məhsullara olan tələbatının ödənilməsi sərhədlərin bağlanması şəraitində belə, heç bir problemin yaşanmasına imkan verib. Həmçinin Naxçıvanda infrastruktur quruculuğunun yüksək səviyyədə həyata keçirilməsi, sənaye müəssisələrinin ekoloji təmizliyə cavab verməsi və digər vacib amillər koronavirus sonrası iqtisadiyyatın, turizmin bərpasında xüsusi əhəmiyyət daşıyacaq.

Bildirilib ki, araşdırmalar nəticəsində hər bir böhran sonrası bərpa edilən turizm sahələrindən səhiyyə və dini turizmə daha böyük ehtiyac yarandığı məlum olub. Təqdirəlayiq haldır ki, bunların hər ikisi üçün Naxçıvanın böyük potensialı vardır. Bu baxımdan muxtar respublika ərazisindəki Əshabi-Kəhf ziyarətgahına müxtəlif ölkə vətəndaşlarının axınının çoxalmasını indidən proqnozlaşdırmaq mümkündür. Eyni zamanda Naxçıvanda böyük məscidin tikilməsi də dini turizmin gələcək inkişafını şərtləndirəcək. Koronavirusun ağciyərlə bağlı bir xəstəlik növü olduğunu nəzərə alaraq pandemiyadan sonrakı dövrdə Duzdağ Fizioterapiya Mərkəzinin səhiyyə turizminin inkişafındakı payının daha da artacağını söyləmək olar. Ümumilikdə, görülən qabaqlayıcı tədbirlər və vaxtında atılan addımlar belə deməyə əsas verir ki, koronavirus pandemiyasından sonrakı dövrdə Naxçıvan Muxtar Respublikasında turizm sahəsi öz əvvəlki vəziyyətinə qayıdacaq və turist axını dinamik artımla davam edəcək.

**Nail ƏSGƏROV**

Naxçıvan mətbəxi

# Naxçıvan mətbəxinə məxsus ən qədim yemək növü – Kətələr



***Bu mövsümdə hər dəfə yolum kəndimizə düşəndə mütləq ocaq qalayıb kətə bişirərəm. Bu dəfə də elə oldu. Yaşı 96-nı ötmüş nənəm deyər ki, dünyanın ən sevimli kababından doyanlar da kətəni görəndə yemək istəyər. İsti-isti içərisinə kərə yağı və ya xama qoyularaq sac, təndir başında kətə yeməyin də öz ləzzəti var. Onun ən xoşladığı və "bu, çox faydalı yeməkdir", – dediyi kətə xüsusi qaydada bişirilir. Nənə deyir ki, müxtəlif kətə xəmirləri eyni qaydada hazırlansa da, pencərlər fəqli olduğu üçün bişirməyin də öz üsulu var. Dilbər nənə onun dediyi qaydada yoğurduğum xəmiri acıdıqdan sonra kündələməyimi istəyir. Kündələr hazır olana kimi bazardan alıb gətirdiyim cacığı, qırxbuğumu yuyub aşsüzənə tökürəm ki, suyu çəkilsin. Kənddən yığdığım salmancanı doğrayıb duzlayır, içərisinə soğan da qatıram ki, daha dadlı olsun.***

Mərəçüyüdü axşamdan bişirib hazır qoyduğunu deyən nənə qırxbuğumu kiçik hissələrə bölür, qonşu Xəzəl xalaya verir ki onu yaxşıca ovsun. Bir anlıq fikrə gedən nənə deyir: – Cavan vaxtlarımda elə ki, istilər düşdü, mal-qaranı yığıb yaylağa – Batabata köçərdik. Payıza kimi o dağların dadlı, min bir dərdin dərmanı olan pencərlərindən yığar, ocaq qalayar, kətə, lavaş bişirərdik. Kərədən, qaymaqdan, pendirdən qış üçün tədarük görərdik. Dağların şəfalı bitkiləri süfrəmizin bəzəyi, ağzımızın dadı olardı. Nənənin söhbətinin bu yerində Xəzəl xala qırxbuğuma qaymaq qatıb yaxşıca qarışdırır, kündəni yayan evin gəlini Münəvvərə verir. O da hazır içliyi xəmirin üzərinə qoyub bükür, gur ocaqda yaxşıca isidilib əvvəlcədən yağla silinən saca salır. Nənəm deyir, bu pencər çox dərdin dərmanıdır. Şahbuzun dağlarında bol olur. Onun dəmləməsinin böyrək xəstəliklərinin müalicəsində əvəzi yoxdur. Qurudub qışa da saxlayırlar. Çayı cana dərmandır. Kətəsi isə yaz yeməklərinin şahıdır.

Nənə izah edir ki, sacda bişirilən kətənin lavaşını bir az nazik, təndirə yapılan kətəni isə nisbətən qalın açmaq lazımdır. Təndirdə bişirilən kətənin xəmirini təzə pendirin suyu ilə yoğurub yapmazdan əvvəl həm təndirin divarlarına, həm də kətənin arxasına duzlu su çiləsən, bu, kətənin təndirin badına daha yaxşı yapışmasına, qopmasına kömək edər, – deyən nənə bir məsləhət də verir: – Xəmir yeməkləri "ağır" yemək olduğundan onlarla yanaşı, süfrəyə hökmən qatıq, ayran qoymaq məsləhətdir.

Kətələrin hər iki üzü qızardıqdan sonra sacdan götürən Münəvvər onları üst-üstə yığaraq üzərini örtür. Bildirir ki, bu qayda ilə yığanda içləri daha yaxşı buğlanır, yumşalır. O, digər pencərlərin icərisinə pendir ovuntusu səpir və onu da bildirir ki, – salmancaya, çöl keşnişinə, ispanağa pendir qatanda daha dadlı olur.

Söhbətimizə qoşulan evin gəlini Münəvvər ət qutabının hazırlanmasından danışır və bunun daha çox uşaqların sevimli yeməyi olduğunu bildirir. O deyir: – Əvvəlcə un, su və duz qatılmaqla xəmir yoğurulur. Acımış xəmir nazik şəkildə yayılır. Yumşaq qoyun əti və soğan qızardılmasından hazırlanmış qiyməyə lavaşana və ya narşərab qatılaraq qarışdırılır. Həmin qiymə nazik yayılmış xəmirin yarı hissəsinin üzərinə qoyulur, o biri yarısı ilə qiymənin üstü örtülür. Daha sonra qutabın kənarları əllə basılaraq yapışdırılır və sacın üstündə hər iki üzü qızardılır. Münəvvər şor qutabının da hazırlanmasının ət qutabı ilə eyni, sadəcə, içliyinə görə fərqləndiyini deyir: şor qutabında içlik kimi şor və ya kəsmikdən istifadə olunur. İçlik şora və ya kəsmiyə göyərti (əsasən şüyüd), duz, istiot, yağda qovrulmuş soğan, nar dənələri əlavə edib qarışdırmaqla hazırlanır. Xəzəl xala onun söhbətinə qoşularaq qeyd edir ki, Kəngərli rayonunun Təzəkənd, Xıncab kəndlərinin ərazilərində bitən şomudan da yaxşı qovurma, kətə olur. Pencərlər yuyulub narın doğranır, duz vurulur, azca ovulur. Xəmirdən kiçik kündələr tutulur, oxlovla yayılır, üzərinə göyərti qoyulur, zərf şəklində bükülür, təndirə yapılır (eyni qaydada sobada da bişirilir).

Təndir ki qalandı, maş çöçəsi bişmədi, deməli, Şərura gəlməmisiniz, – deyərək evin gəlinindən maş çöçəsi üçün axşamdan hazırlanan içliyə doğranmış cəvizləri qatmağını istəyən nənə onun da xəmiri və hazırlanması haqqında danışır:

– Bu kətənin xəmiri digərlərindən fərqlidir. Un, yağ, süd, maya və sarıkökü qarışdırıb, xəmir yoğurub acımasını gözləyirlər. Sonra lobya dənəsi və mərcimək yaxşı qaynadılıb süzülür, qovurulan soğanla birlikdə ət maşınından keçirilir. Xəmir yaxşıca acıdıqdan sonra kündə salır, bu kündələri açaraq içərisinə hazırladığımız içlikdən qoyub, bükür, yastılayıb, üzərinə yumurta sarısı vurub təndirdə bişiririk. Nənə onu da bildirdi ki, bu kətə Naxçıvan mətbəxinə məxsus olan ən qədim kətə növüdür.

Kündələri əvvəlcədən hazır etdiyim üçün içliyi alıb nənəmin sevimli kətəsi olan maş kətələrini hazırlayır, həyətdəki kiçik təndirə yapması üçün Xəzəl xalaya verirəm. O, maş kətələrini təndirə yapır.

Sacda, təndirdə bişən kətələrdən qonum-qonşuya da pay tutan nənəm deyir: – Qızım, bu, bir adətdir. Həyətdə bişiriləndən hökmən yaxın qonşulara pay çıxmalısan. Çünki təndir saldın, sacı ocağa qoydunsa, çörək, kətə bişirdin, qovurma elədin, halva çaldınsa, bişirilənlərin ətri ətrafa yayılır. Biz gözümüzü açıb belə görmüşük. Şükür ki, bu adətlərimizi indiyədək də yaşadırıq. Nənəmin sözlərini dinlədikcə yaxşı ki, milli-mənəvi dəyərlərimizin yaşadıldığı bir yurdun insanlarıyıq, – deyə düşünür və qədim Naxçıvanın bir parçası olan Şərurun Arazqırağı kəndi Ərəbyengicəyə yazın bəxş etdiyi gözəlliyi seyr edirəm. Həzin-həzin əsən küləyin dalğalandırdığı çiçəklər, otlar naz satan gözəllərə bənzəyirlər. Torpaq sanki qış günlərində topladığı gücünü, qüdrətini göstərir, qoynunda açan çiçəklərə sığal çəkir. Boy göstərən nanənin, yarpızın, nərgizin, bənövşənin ətrafı bürüyən ətri, Günəşin istisi ilə qışın soyuq-şaxtasından ruhdan düşüb bozaran ağacların çiçək açıb yarpaqlaması, təbiətdə olan hər bir varlığın oyanışı baharın gözəlliyindən söhbət açır. May isə yazın gözəlliklərinin daha çox hiss edildiyi ay olmaqla bərabər, həm də kətənin ən çox bişirildiyi vaxtdır. Bu ayda perpencərin bol olması bu yeməyin çeşidini də artırır. Qədim diyarımıza yaz gələndən səhər ertədən çölə, dağa, düzə yarpız, acıqıcı, mərəçüyüd, salmanca, yemlik, əvəlik, çiriş, qırxbuğum, cacıq toplamaq üçün yollanan qız-gəlinlər xəmir yoğurub dadlı kətələr bişirmək üçün evə tələsirlər... Beləcə, Naxçıvan süfrəsinin ləziz bəzəyi sayılan, ləzzətlə nuş edilən bu mətbəx nümunəmizlə həm ailələri, necə deyərlər, nübarçalığa çıxarır, həm də üzün müddət vitaminsiz yeməklərlə qidalandığımız qış fəslindən sonra doğma yurdumuzun halal və bərəkətli torpaqlarından, büllur qədər saf havasından, bol günəşindən bir ayrı dad-ləzzət alan, orqanizm üçün olduqca faydalı, vitamin və minerallarla zəngin məhsullarla qidalanmaqla immunitetimizin möhkəmləndirilməsinə səbəb olurlar.





✍ **Ramiyyə ƏKBƏROVA**

# "Evdə qal, şahmat oyna" devizi ilə keçilən videodərslər və onlayn turnirlər davam edir



*Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının müəllimləri tərəfindən "Evdə qal, şahmat oyna" devizi ilə keçilən videodərslər davam edir.*

COVİD-19 pandemiyası səbəbilə onlayn şəkildə keçilən dərslərdə federasiyanın bütün şagirdləri iştirak edirlər. İnternet resurslarından yararlanan zəka sahiblərinə dərslər Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının müəllimi, qrossmeyster Urfan Sevdimalıyev, beynəlxalq ustalar Toğrul Həsənzadə və Talıb Babayev tərəfindən tədris olunur. Videodərslərin təşkilində məqsəd şahmatçıların evdə asudə vaxtlarının səmərəli təşkilinə və məşğələlərdən geri qalmamasına nail olmaqdır.

Onlayn şahmat dərslərində ikiqat dünya çempionu, qrossmeyster İlahə Qədimova da bilik və bacarıqlarını gənc zəka sahiblərinə aşılayıb. Beynəlxalq usta Talıb Babayevin "Cinahdan oyun" adlı videodərsində isə şahmatçılara "cinahdan necə oyun qurulmalıdır?" sualına aydınlıq gətirilib. Urfan Sevdimalıyev tərəfindən hazırlanan "Sonluq taktikası" mövzusunda videodərs keçilib. Növbəti videodərsdə Aleksandr Alyoxin və Raul Kabablanka oyununun analizi təqdim edilib.

Həftənin bütün günləri keçilən videodərslərlə yanaşı, Şahmat Federasiyası tərəfindən mütəmadi olaraq onlayn şəkildə blits, bullet (sürətli şahmat) turnirləri və yoldaşlıq görüşləri də təşkil edilir. Həmçinin Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının, Mersinin Modern, Grand Master və Şah Şahmat klublarının şahmatçıları arasında rapid turnir də keçirilib. Şahmat Federasiyasının şahmatçıları ilə Ankara Dövlət Su İşləri Şahmat Klubunun zəka sahibləri arasında internet üzərindən canlı dostluq görüşü də təşkil olunub.

Ötən gün isə Şahmat Federasiyasının, Modern, Grand Master və Olbia Şahmat klublarının, Ankara DSİ Gənclik və İdman dərnəyinin və Şah Şahmat Klubunun şahmatçıları arasında blits turniri təşkil olunub. 3+2 dəqiqəlik yarışın iştirakçıları *chess.nax.az* saytına daxil olaraq qeydiyyatdan keçib və oyunda iştirak ediblər. Qeyd edək ki, bu, klub şahmatçılarının artıq ikinci qarşılaşmaları olub.

Federasiyanın zəka sahibləri arasında ötən gün rapid, blits və bullet turniri olub. Turnirdə iştirak etmək istəyən şahmatçılar elektron şəkildə qeydiyyatdan keçməklə mübarizəyə qoşulublar.

Azərbaycan Respublikasının Türkiyədəki səfirliyi və SOCAR-Türkiyənin birgə təşkilatçılığı ilə internet üzərindən şahmat yarışı təşkil edilib. Yarışda Azərbaycan komandası ilə Türkiyədə yaşayan azərbaycanlı şahmatçılarımız qarşı-qarşıya gəliblər. Urfan Sevdimalıyev də Azərbaycan komandasının heyətində mübarizə aparıb.

Azərbaycanda şahmatın təbliği və inkişafı, pandemiya şəraitində şahmatçıların oyun praktikasının saxlanması məqsədilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Azərbaycan Şahmat Federasiyasının birgə təşkilatçılığı ilə internet üzərindən şahmat üzrə bullet birinciliyi keçirilib. Turnirdə FİDE əmsalı 2200-dən yuxarı, qadınlardan isə 1900-dən yuxarı olan şahmatçılar iştirak edib. Həmçinin 2016-cı ildə 16 yaşa qədər yeniyetmələr arasında keçirilən Ümumdünya şahmat olimpiadasının qalibləri, son üç ildə keçirilmiş yaş qrupları üzrə Dünya və Avropa birinciliklərinin qalibləri və mükafatçıları, oğlan və qızlar arasında 2019-cu il Azərbaycan çempionatının (8-18 yaş) qalib və mükafatçıları mübarizə aparıblar. Naxçıvan Muxtar Respublikası Şahmat Federasiyasının 5 zəka sahibi də birincilikdə zəka gücünü sınayıb. Onlar arasında ən uğurlu nəticə göstərən 1-ci Azərbaycan çempionatının iştirakçısı şahmatçımız Urfan Sevdimalıyev olub.

Qeyd edək ki, Şahmat Federasiyası tərəfindən dərs və turnirlər mütəmadi olaraq təşkil edilir. Dərslər və yarışlar federasiyanın rəsmi youtube kanalına yerləşdirilir.

✍ **Ceyhun MƏMMƏDOV**

# Nümunəvi məşğələ keçirilib

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin xüsusi təyinatlı və avtomobil nəqliyyatı vasitələrinin yaz-yay mövsümü istismarı şəraitinə keçidi ilə əlaqədar Mülki Müdafiə Alayında nümunəvi məşğələ keçirilib.***

Üç təlim yerində, 32 tədris nöqtəsində xüsusi təyinatlı avtomobillərin və mühəndis texnikalarının yaz-yay mövsümü istismarı şəraitinə keçidi zamanı görülən işlər, mühəndis və xilasetmə avadanlıqlarına, yanğın-texniki silahlara, eləcə də radiasiya-kimya kəşfiyyatı cihazlarına və rabitə vasitələrinə texniki xidmətin göstərilməsi praktik olaraq nümayiş etdirilib.

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyinin xüsusi təyinatlı və avtomobil nəqliyyatı vasitələrinin yanacaq-sürtkü materialları, digər zəruri ehtiyat hissələri və avadanlıqlarla təminatı mərkəzləşdirilmiş qaydada həyata keçirilir, yaz-yay mövsümü istismarı şəraitinə keçid zamanı texnikalara texniki xidmət 1 və 2 həcmində qulluq göstərilir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***


## "Xidmət" Açıq Tipli Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!

Naxçıvan şəhəri, Xətai küçəsi 6-da yerləşən "Xidmət" ATSC-nin inzibati binasında 22 iyun 2020-ci il tarixdə saat $11^{00}$-da səhmdarların ümumi yığıncağı keçiriləcəkdir. Yığıncağın gündəliyində aşağıdakı məsələlər durur:

*1. Səhmdarların ümumi yığıncağının reqlamentinin təsdiqi*

*2. Cəmiyyətin 2019-cu ildə maliyyə-təsərrüfat fəaliyyətinə dair idarə heyəti sədrinin hesabatı*

*3. 2020-ci ildə cəmiyyətin fəaliyyət proqramına baxılması*

*4. Sair məsələlər.*

***İdarə heyəti***

### İtmişdir

Hüseynov Kirman Hüseyn oğlunun adına olan 0800178262 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

* * *

Əkbərov Natiq Vahid oğlunun adına olan 0200828882 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Pərviz Hacılı

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 324